**Beynəlxalq Telekommunikasiya İttifaqının Nizamnaməsinə və Konvensiyasına, habelə düzəliş sənədlərinə qoşulmaq barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. Azərbaycan Respublikası Beynəlxalq Telekommunikasiya İttifaqının 1992-ci il dekabrın 22-də Cenevrə şəhərində qəbul edilmiş Nizamnaməsinə və Konvensiyasına, habelə 1994-cü il oktyabrın 14-də Kioto şəhərində imzalanmış düzəliş sənədlərinə aşağıdakı qeyd-şərtlə qoşulsun:

"Azərbaycan Respublikası Hökuməti aşağıdakı hüquqları özündə saxlayır:

1. Əgər ittifaqın üzvü olan hər hansı dövlət Beynəlxalq Telekommunikasiya İttifaqının Nizamnaməsinin və Konvensiyasının və ya onlara dair Əlavələrin, Protokolların və Reqlamentlərin müddəalarına hər hansı şəkildə əməl etməzsə və ya bunları gözləməzsə, əgər hər hansı başqa birliklərin və ya üçüncü ölkələrin hərəkətləri Azərbaycan Respublikasının milli suverenliyinə toxunarsa və ya onun üçün təhlükə yaradarsa, suverenliyini, ayrılmaz hüquqlarını və milli mənafelərini qorumaq üçün zəruri saydığı və məqsədəuyğun bildiyi hər hansı bir tədbiri görmək;

2. Əgər İttifaqın hər hansı üzvü İttifaqın xərclərinin ödənilməsində iştirak etməzsə və ya İttifaqın başqa üzvlərinin qeyd-şərtləri İttifaqın xərclərinin ödənilməsində Azərbaycan Respublikasının üzvlük haqqı payının artırılmasına və ya başqa maliyyə nəticələrinə gətirib çıxararsa, yaxud onun telekommunikasiya xidmətinin işini bilavasitə və ya dolayı yolla təhlükə altına salarsa, öz mənafelərini qorumaq üçün zəruri bildiyi tədbirləri görmək;

3. Beynəlxalq Telekommunikasiya İttifaqının Nizamnaməsində və ya Konvensiyasında Azərbaycan Respublikasının suverenliyinə bilavasitə və ya dolayı yolla təsir göstərə bilən, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına zidd olan hər hansı müddəaları özünə aid hesab etməmək".

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 14 mart 2000-ci il
№ 826-IQ